# Milli adət və ənənələr əxlaqi mənəvi dəyərlər kontekstində

***Hazırda Bakının mədəniyyət və istirahət parklarında keçirilən bayram şənliklərində Azərbaycan Prezidentinin və başqa dövlət xadimlərinin iştirak etməsi dövlətçiliyin qorunması və təbliği üçün də geniş imkanlar yaradır. Onlar xalqla birbaşa görüşmək və ünsiyyətdə ol-maq imkanı əldə edir, təbriklərlə yanaşı, həyatımızın daha da yaxşılığa doğru dəyişəcəyi barədə vədlər verirlər. Təbii ki, bayram şənliklərində verilən bu vədlər insanların yaradıcılıq ruhunu gücləndirir, ölkənin sa-bahına nikbinliklə yanaşmaq istəyini artırır.***

Müasir mərhələdə bəzi adət və ənənələrin icra edilməsinin məkanı və təşkil olunmuş formaları ictimai quruluşun xüsusiyyətlərinə uyğun olaraq təkmilləşdirilmişdir. Xüsusilə, toy mərasimlərinin keçirilməsi üçün yeni, daha əlverişli şərait meydana gəlmişdir.

İndi Bakı şəhərində toy keçirmək üçün yüzlərlə şadlıq evləri vardır. Bu şadlıq evlərində peşəkar aşbazlar, musiqiçilər, fotoqraflar, videooperatorlar, masabəylər və s. sahələrdə xidmət göstərən adamlar çalışırlar. Şadlıq evləri milli ənənəviliyi qoruyub saxlamaq şərti ilə mədəni xidmət sahəsində yeniliklər yaradır, məclisi də toy sahibinin arzusuna uyğun olaraq təşkil edirlər. Toy mərasiminin daha cazibəli olması üçün rəngarəng bədii vasitələrdən istifadə olunur, şadlıq evinin hesabına bəylə gəlinə xatirə olaraq ziynət əşyaları bağışlanılır.

Toy mərasimlərinin təşkilinin əvvəlki dövrlərə nisbətən daha stabil və bədii vasitələrlə keçirilməsi əsasən ölkəmizdə sahibkarlığın inkişafı ilə bağlıdır. Məhz sahibkarlığın yaratdığı imkanlara uyğun olaraq toy məclislərinin daha yaxşı keçirilməsi istiqamətində də ölkəmizdəki şadlıq evləri arasında rəqabət yaranmışdır.

Şadlıq evlərinin sayının artması xalq musiqi sənətinin qorunmasına və inkişaf etməsinə də kömək edir. İndi xalq arasında yetişən istedadlı müğənnilərimiz, musiqiçilərimiz əsasən şadlıq evlərində fəaliyyət göstərir, özlərinin maddi ehtiyaclarını ödəyə bilirlər. Təbii ki, şadlıq evlərinin tələbatına uyğun olaraq onlar öz sənətkarlıq səviyyələrinin artmasına da diqqət yetirirlər. Çünki, şadlıq evinin müştərilərinin çoxalması toyun əsas bədii hissəsini idarə edən müğənnilərin və musiqiçilərin peşəkarlığından da çox asılıdır. Sənətkar yüksək peşəkarlığı və istedadı ilə şöhrət qazanır.

Lakin qeyd etmək lazımdır ki, istedadların aşkar olunmasında və bədii xalq yaradıcılığının inkişaf etməsində indi Həmkarlar İttifaqının nəzdində olan mədəniyyət müəssisələri, tarixi-milli ənənələrə sadiq qalaraq, mədəniyyətin inkişafında xüsusi rol oynayırlar. Bu müəssisələrdə, eyni zamanda "müxtəlif qrup adamlar"ının peşə, yaş, təhsil, milli və digər keyfiyyətləri də nəzərə alınır. Bu baxımdan Həmkarlar İttifaqının mədəniyyət ocaqlarında:

- elmi sahələrin müxtəlif istiqamətləri üzrə mühazirələr, disputlar və s. keçirilir, incəsənət və elm xadimləri, əmək veteranları və Vətənin müdafiəçiləri (ölkənin Silahlı Qüvvələrinin nümayəndələri) ilə görüşlər təşkil edilir;
- xalq yaradıcılığının xor, xalq çalğı alətləri ansamblları, dram, bal rəqsləri, sirk, estrada və digər kollektivləri təşkil olunur;
- bədii özfəaliyyət iştirakçılarının, peşəkar artistlərin konsert və tamaşaları, bədiisənədli, elmitexniki və həvəskar filmlərin nümayişi təşkil edilir, bədii gecələr, ballar, karnavallar, özfəaliyyət kollektivlərinin baxış və müsabiqələri keçirilir;
- kütləvi gəzintilər, məktəblərlə birlikdə uşaqlar üçün xüsusi tədbirlər təşkil edilir.

Göstərilən bu məlumat "Həmkarlar İttifaqı klubu, mədəniyyət sarayı və evi haqqında Əsasnamə"dən (1996cı il) götürülmüşdür. Bu "Əsasnamə" mədəniyyət müəssisələrinə ödənişli xidmətləri təşkil etmək üçün müəyyən səlahiyyətlər də vermişdir.

"Əsasnamə"də qeyd olunur ki, "Həmkarlar İttifaqı klubları, mədəniyyət sarayları və evləri əhaliyə aşağıdakı ödənişli xidmətləri göstərə bilərlər:

a) mütəxəssislər cəlb olunmaqla müxtəlif mühazirələrin, görüşlərin (elm, mədəniyyət, incəsənət və digər xidmətlər) keçirilməsi;

b) əhaliyə mədəniyyət, incəsənət, hüquq, tibb, məişət və digər məsələlər üzrə məsləhətlərin verilməsi;

c) musiqinin, rəqsin, təsviri və dekorativ-tətbiqi incəsənətin müxtəlif növləri üzrə məktəblər, studiyalar açmaq;

ç) biçmə və tikmə, toxuma, naxış vurma, paltarın modelləşdirilməsi, kulinariya, makinada yazma, stenoqrafiya, xarici dillərin öyrənilməsi və kompüter texnikası ilə iş, ilk tibbi yardımın göstərilməsi üzrə tibb bacısı və digər sahələr üzrə kurslar, dərnəklər təşkil etmək;

d) ümumxalq və peşə bayramlarına həsr olunmuş istirahət axşamlarının, diskotekaların, balların, tamaşa və konsertlərin (peşəkar və bədii özfəaliyyət kollektivləri), modaların, kino və videoproqramların təşkili;

e) xalq yaradıcılığı yarmarkalarının, lotereyaların keçirilməsi;

ə) oyun avtomatlarından, stolüstü oyunlardan, idman trenajorlarından, atıcılıq tirlərindən, tennis kortlarından istifadə edilməsi;

f) musiqi alətlərinin, audio və videotexnikanın kirayə verilməsi, musiqi alətlərinin təmiri;

g) respublika hüdudlarında və ondan kənara turist marşrutlarının təşkili;

ğ) fotosurətçıxarma, kserosurətçı-

xarma və digər çoxaltma xidmətləri;

h) bir dildən digərinə tərcümə;

x) müxtəlif tədbirlərin keçirilməsi üçün ssenarilərin işlənib hazırlanması;

ı) mədənibədii təyinatlı məhsulların, reklam nəşrlərinin, ədəbiyyatın, suvenir məmulatların, bufet və mətbəx məhsullarının və s. satışı".

Bu deyilənlərdən aydın olur ki, Azərbaycan Respublikasının Həmkarlar İttifaqı özünün qəbul etdiyi hüquqi sənəd əsasında tabeliyində olan mədəniyyət müəssisələrinin fəaliyyət dairəsini genişləndirmiş, bazar iqtisadiyyatı şəraitinə uyğun olaraq onlara əlavə gəlir əldə etmək və bu yolla da öz madditexniki imkanlarını yaxşılaşdırmaq statusu da vermişdir. Məhz bu statusdan istifadə edərək ölkəmizin bir çox mədəniyyət və istirahət parkları, sarayları, klubları və s. öz işini göstərilən "Əsasnamə"yə uyğun olaraq qura bilmişlər.

Həmkarlar İttifaqı öz tabeliyində olan mədəniyyət müəssisələrinə müstəqil yaradıcılıq və istehsalat fəaliyyəti imkanını vermişdir. İndi bu mədəniyyət müəssisələri müstəqil olaraq özlərinin sosial inkişaf planını işləyib hazırlayır, təsdiq edir və həyata keçirirlər. Təbii ki, bu müstəqillik əhalinin asudə vaxtının səmərəli keçirilməsinə, onların yaradıcılıq fəaliyyətlərinin inkişaf etdirilməsinə müsbət zəmin yaradır.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan dövlətinin milli sərvətlərimizin, eləcə də mədəni irsimizin qorunmasına olan qayğısı daha da artmış və bu gün də artmaqdadır. Buna Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərindəki dənizkənarı bulvara Milli park statusu verilməsi haqqında" fərmanını misal göstərmək olar.

Bu fərmandan sonra Bakıda və başqa şəhərlərdə parkların yenidənqurulmasına və milliləşdirilməsinə xüsusi diqqət yetirilmişdir. Yüzlərlə mədəniyyət və istirahət parkları meydana gəlmiş və "Lunapark" kimi onlarla yeni tipli əyləncə mərkəzləri yaradılmışdır.

Hazırda yeni yaradılmış mədəniyyət mərkəzləri uşaq və gənclərin istedad və yaradıcılıq qabiliyyətlərinin üzə cıxmasına, onların istirahət və əyləncələrinin təşkil olunmasına daha geniş əhəmiyyət verməyə başlamışlar.

Mədəniyyət müəssisələri BMTnin insan hüquqları mərkəzinin Uşaq hüquqları konvensiyasında irəli sürülən tələblərə uyğun olaraq fəaliyyət göstərir. Mədəniyyət müəssisələri "Uşaq istirahət, asudəvaxt və mədəni həyatda, yaradıcılıq həyatında iştirak etmək hüququna malikdir" prinsipinə uyğun olaraq iş qururlar. Onların müxtəlif vərdişlərə yiyələnməsinə, mənəvi cəhətdən zənginləşməsinə ardıcıl olaraq kömək edirlər.

Mədəniyyət müəssisələri məktəblərlə, əmək kollektivləri ilə, ictimaisiyasi təşkilatlarla və s. dövlət müəssisələri ilə birlikdə uşaq və yeniyetmələrin ahəngdar inkişafı üçün hərtərəfli iş aparırlar. Bu işin realizə olunmasında Azərbaycan Uşaq Fondunun fəaliyyətini də müsbət qiymətləndirmək lazımdır. Fond uşaqların həm fiziki cəhətdən, həm də mənən tərbiyə olunması, onların təhsilə, peşəyə yiyələnməsi, vətəndaşlıq hüquqlarının qorunması üçün digər təşkilatlarla da əməkdaşlıq edir, qəbul etdiyi Nizamnaməyə uyğun olaraq fəaliyyət göstərir.

Azərbaycan Uşaq Fondunun Nizamnaməsinin II bölməsində deyilir: "...Uşaqların və yeniyetmələrin inkişafı üçün ahəngdar şərait yaradılması məqsədilə vətəndaşların, əmək kollektivlərinin, dövlət və ictimai orqanların, təşkilatların faydalı təşəbbüslərini, uşaqların asudəvaxtının orijinal təşkilinin müsbət təcrübəsini aşkara çıxarır, öyrənir və tətbiq edir, bu təşəbbüslərə və təcrübəyə maddi, mənəvi və təşkilati kömək göstərilməsini təşkil edir, onların istedadlarının üzə çıxması üçün lazımi şərait yaradılmasına yardım göstərir.

Uşaq və yeniyetmələr ölkənin əsas potensial qüvvəsi olduğu üçün dövlət səviyyəsində onların yaradıcılıq və istirahət hüquqları rəsmi qanunlarla müdafiə olunur».

Nizamnamədə həm də qeyd olunur ki, hər bir uşağa bu gün istirahət etmək və asudəvaxtdan səmərəli istifadə etmək və bundan bəhrələnmək imkanı verilir. Bu baxımdan uşaqlar özlərinin maraqlarına uyğun olaraq məktəbdənkənar istirahət və məşğuliyyət növləri də seçə bilərlər. Təbii ki, onların fəaliyyətlərinin düzgün istiqamətləndirilməsi üçün mədəniyyət müəssisələri əməkdaşları üzərinə daha ciddi vəzifələr düşür. Onlar hər bir uşağa fərdi yanaşaraq onların istedad və bacarıqlarını üzə çıxarmağı, onları yaradıcılıqla məşğul olmağa həvəsləndirməyi bacarmalıdırlar. Xüsusilə, mədəniyyət müəssisələri uşaq və yeniyetmələrin potensialından istifadə edərək Azərbaycan xalqına məxsus olan bədii yaradıcılıq ənənələrini davam etdirməlidirlər.

Onu da qeyd edək ki, uşaqların oyuna, əyləncəyə bütün dövrlərdə maraqları olmuşdur. Bu xüsusiyyəti nəzərə alaraq mədəniyyət müəssisələri əyləncəli oyunların təşkilinə daha çox üstünlük verməlidirlər. Xüsusilə, Mədəniyyət və İstirahət parklarında fiziki oyunlardan tutmuş məntiqi xarakter daşıyan oyunlara qədər keçirilən hər bir tədbir böyük marağa səbəb olmalıdır. Bu oyunlar mənəvi cəhətdən zənginləşdirici əhəmiyyət kəsb etməklə yanaşı, biliklərə və vərdişlərə yiyələndirmək funksiyasını da yerinə yetirməlidirlər. Xüsusilə, elektron oyunlar uşaqların zehni biliklərinin formalaşmasına daha çox imkan yaradırlar. Bu isə uşaqlarda bilavasitə müasir texnika ilə davranmaq vərdişlərini formalaşdırır. Müasir mərhələdə bədii mədəniyyətin də çox mürəkkəb yaşamları və həyati funksiyaları vardır. Buna görə də müasir mədəniyyətin əsas ənənəvi cizgiləri də müxtəlifdir. Çünki müasir bədii mədəniyyətdə kommersiya maraqları ilə siyasi maraqlar paralellik təşkil edir. Bu cəhət mədəniyyətdə bir çox qatlara malik olan yaradıcılıq istiqamətlərinin yaranmasına və inkişafına səbəb olur. Belə ki, bədii mədəniyyətdən paralel olaraq müxtəlif məqsədlər üçün yararlanmaq mümkündür. Məsələn, son dövrlərdə xarici ölkələrlə mədəni əlaqələri inkişaf etdirmək üçün İstanbuldakı Memar Sinan Universiteti ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti arasında əməkdaşlıq müqaviləsi mövcuddur. Bu əlaqələrin əsas təşkilatçısı Azərbaycan



Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Timuçin Əfəndiyevdir. İndi nəinki iki təhsil müəssisəsi arasında, həmçinin iki dövlət arasında bədii yaradıcılıq əlaqələri genişləndirilmişdir. Məhz bu cəhət bədii mədəniyyətin əlaqələndirilməsinin həm də siyasi mahiyyəti kimi qiymətləndirilməlidir. Bu əlaqələr iki dövlətin həm də siyasi tərəflərinin birbirinə yaxınlaşmasına mənəvi zəmin yaradır. Deməli, bədii yaradıcılıq həm siyasi əlaqə funksiyasını yerinə yetirir, həm də mənsubiyyətindən asılı olmayaraq minlərlə insanlara mənəvi, bədii zövq aşılayır. Eyni zamanda yaradıcılıq ənənələri xalqlar arasında birbirinə dair yeni biliklər formalaşdırır.

Hələ 1989-cu ildən başlayaraq Türkiyə dövləti ilə Azərbaycan SSR arasında mədəniiqtisadi əlaqələr qurulmağa başlandı. Elə həmin dövrdə Bakı şəhərində "Türk dünyası" adlı kitab mağazası yaradıldı. Bu mağazada Türkiyədə çap olunan 75 adda kitab Azərbaycan oxucularına təqdim olundu. O vaxt İstambulda da "Azərbaycan dünyası" adlı kitab mağazası açıldı. Məhz bu illərdən elmi, mədəni, iqtisadi əlaqələr daha geniş miqyasda təşəkkül tapmağa başladı.

1990-cı ilin oktyabr ayında Türkiyə Yazarlar Birliyi ilə Azərbaycan Yazıçılar İttifaqı arasında xüsusi müqavilə əsasında iş birliyi yaradıldı. Sovet imperiyası hakimiyyətinin zəifləməsi Azərbaycan vətəndaşlarının beynəlxalq miqyasda ünsiyyətə girmək, yaradıcılıqla məşğul olmaq imkanlarını artırdı. Bütün sahələrdə olduğu kimi məhz mədəniyyət və incəsənət sahəsində də iş birliyi yaradılması ənənələrinin əsası qoyuldu.

Müstəqil Azərbaycan Dövləti yarandıqdan sonra isə hər kəsin yaradıcılıq azadlığı Azərbaycan Respublikasının əsas qanunu olan Konstitusiyada öz əksini tapdı.

Azad yaradıcılıq hüquqları ilə əlaqədar olaraq Konstitusiyanın 51-ci maddəsində deyilir: "Hər kəsin yaradıcılıq azadlığı vardır. Dövlət ədəbibədii elmi, elmitexniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir".

Eyni zamanda "Mədəniyyət haqqında" Qanunun 7-ci maddəsinə əsasən hər bir Azərbaycan vətəndaşına öz maraq və qabiliyyətinə uyğun olaraq istənilən sahə üzrə yaradıcılıqla məşğul olmaq hüququ verilir. Bu hüquq əhalinin bütün təbəqələrini əhatə edir və qanunvericilikdə onların yaradıcılıq fəaliyyəti ilə məşğul olmaları üçün münasib şəraitin yaradılmasını qanuniləşdirir.

Azərbaycan Respublikasının Konstitusiyasının 40-cı maddəsi əsasında hər kəsə mədəniyyət hüququ verilir. Konstitusiyada göstərilir ki, "hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır. Hər kəs tariximədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır".

Bildiyimiz kimi, hər kəsin cəmiyyətin mədəni həyatında yaxından iştirak etmək və mədəni sərvətlərdən bəhrələnmək hüququ vardır. Şübhəsiz ki, xalqımızın mədəni sərvətləri əsasən mədəniyyət müəssisələrinin əhatə dairəsində cəmlənmişdir. Xalqımızın istedadını, tarixini, mədəniyyətini əks etdirən mənəvi irsimizlə yalnız muzeylərdə yaxından tanış olmaq mümkündür. Bu baxımdan muzeylərimiz mədəniyyət müəssisəsi kimi, mənəvi sərvətlərimizin təbliğ olunmasında, gənc nəsildə xalqımızın keçdiyi tarixi yollara hörmət hissinin artırılmasında daha böyük işlər görmək imkanlarına malikdirlər.

Millimənəvi irsimiz adamlarımızın daxili mədəniyyətinin formalaşmasında da xüsusi əhəmiyyət kəsb edir. Akademik Azad Mirzəcanzadə demişkən:"Daxili mədəniyyət olmadan ədəb qaydalarını, "yaxşı rəftarı" və s. əzbərləmək - mədəniyyətsiz mədənilər üçün səciyyəvidir".

Etiraf etmək lazımdır ki, sosialist cəmiyyətindən qalmış ən humanist ənənələr əsasən mədəniyyət və elm sahələrini əhatə edir. İndiki bazar iqtisadiyyatı mərhələsində də həmin ənənələri qoruyub saxlamağa və daha da inkişaf etdirməyə ehtiyac vardır. Elə bu məqsədlə də pionerlər evlərinin maddi-texniki bazası, onun iş ənənələri "uşaq və gənclər evi" adı altında qorunub saxlanılmışdır. Başqa mədəniyyət müəssisələri ilə yanaşı, onlar da elmi, mədəni, yaradıcı potensialımızın inkişafına daima kömək edirlər.

Azərbaycanın qocaman mədəniyyət və incəsənət xadimlərinə, gənc yazıçı və şairlərinə, gənc istedadlara dövlət tərəfindən təyin edilən fərdi və xüsusi təqaüdlər ölkə başçısının bu sahəyə böyük qayğısının parlaq təzahürü idi.

Xalqımızın əsrlər boyu yaratdığı milli adət və ənənələr dövlət səviyyəsində qayğı ilə əhatə olunduqca hər bir vətəndaşın mənəvi irsə, mədəni köklərə bağlılığı daha da artır. Mədəniyyət işçiləri isə bu qayğıdan istifadə edərək adət və ənənələrimizin, milli yaradıcılıq təcrübəmizin inkişafına əsaslı zəmin yaradırlar.

İndiki mərhələdə mədəniyyət müəssisələri dini bayramlarımızın təntənəli şəkildə qeyd olunması üçün də konkret proqramlar hazırlayır, həmin bayramların ictimai, mədəni əhəmiyyətini artırmaqdan ötrü bədii-emosional vasitələrdən istifadə edirlər. «Qurban» və «Ramazan» bayramlarında dini və ictimai təşkilatlarla əlaqələr genişləndirilir, onların arzu və istəklərinə uyğun olaraq ssenarilər və həmin ssenarilərə əsasən isə bədii nümunələr hazırlanır.

Mədəniyyət müəssisələri adət və ənənələr zəminində tədbirlər hazırlayarkən milli-etnoqrafik xüsusiyyətlərin qorunması qayğısına da qalırlar. İfaçı-aktyorlar, rəqqaslar və tədbirdə iştirak edən başqa sənət adamları ənənəvi, etnoqrafik milli geyimlərimizdən lazımınça istifadə edirlər. Dekorasiyalar və əlbəsələr isə adət və mərasimlərin milli-ənənəvi xüsusiyyələrinə uyğun olaraq hazırlanır.

Bu gün aparılan müşahidələr bir daha təsdiq edir ki, mədəniyyət müəssisələri öz tədbirlərini milli adət və ənənələrimizə daha çox həsr etməklə tədbir iştirakçılarının sayını və fəallığını artırmaq üçün real imkanlar əldə edirlər.

Xalq öz mədəni irsinə, xüsusilə, adət və ənənələrinə qarşı tarixin bütün dövrlərində yüksək həssaslıqla

yanaşmışdır. Bu da ondan irəli gəlir ki, xalqın özünün yaratdığı mənəvi sərvətlər, adət və ənənələr məhz bayram və mərasimlərin tərkibində cəm olmuşdur. Onlar xalqın mənəvi həyatı və duyğular toplusudur. Buna görə də, mədəniyyət müəssisələrinin kütləvi tədbirlərində xalqın özünün yaşatdığı həyat materiallarından istifadə etmək istəyi tədbiri daha da emosionallaşdırır, milli duyğularla zənginləşdirir. Xalq bu bayramlarda əsrlər boyu yaratdığı dəyərlərin bədii-estetik əhəmiyyətini görür və fəxarət hissi keçirir.

***İlqar Hüeynov,***
***ADMİU-nun Tətbiqi Kulturologiya kafedrasının müdiri***